# Azərbaycan bütün strateji məqsədləri həyata keçirməyə qadirdir!

***Ölkəmiz bu gün Cənubi Qafqazın mübaliğəsiz olaraq, ən qüdrətli dövlətidir. Xüsusilə Vətən müharibəsində möhtəşəm qələbə qazandıqdan sonra bu üstünlük özünü bütün prizmalardan büruzə verməkdədir. Şuşanın və bir sıra rayon, qəsəbə və kəndlərimizin azad edilməsindən sonra imzalanan 10 noyabr üçtərəfli bəyanatına Ermənistanın qoşulması bu dövlətin həm də kapitulyasiyası kimi tarixiləşdi. 44 günlük müharibədə Azərbaycan Ordusunun ardıcıl zərbələri nəticəsində torpaqlarımızdan qovulan Ermənistan daha dəqiq desək, hələ belə məğlubiyyət yaşamamışdı. Üçtərəfli bəyanatda həm cəmiyyətimiz, həm dövlətimiz üçün strateji əhəmiyyət daşıyan bəndlərdən biri də Zəngəzur dəhlizinin açılması, beynəlxalq kommunikasiya xətlərinin bərpa olunmasıdır.***

Həmin sənədin 6-cı bəndinə əsasən Laçın dəhlizi 11 aydır işləyir. Amma razılaşmanın 9-cu bəndinə əsasən açılmalı olan Zəngəzur dəhlizi hələ də reallaşdırılmayıb. Təəsüf ki, dəhlizin işə düşməsi üçün erməni tərəfi heç bir addım atmır. Lakin Azərbaycan Prezidenti İlham Əliyevin bu fikirləri də hər zaman aktualdır: “Biz Zəngəzur dəhlizini icra edəcəyik, Ermənistan bunu istəsə də, istəməsə də. İstəsə, daha asan həll edəcəyik, istəməsə də, zorla həll edəcəyik”.



Əslində, hər iki dəhlizin fəaliyyətə başlaması eyni dövrdə həyata keçirilməli idi. Təbii ki, 10 illərdir işləməyən bir kommunikasiya xəttinin bərpası müəyyən vaxt tələb edir. Ancaq ən azından bu istiqamətdə işlərin müəyyən icrası həyata keçirilə bilərdi. Amma görünür, erməni tərəfi hələ də özünün çirkin niyyətinə uyğun Zəngəzur dəhlinin işə düşməsinə müxtəlif yollarla mane olmağa çalışır. Ali Baş Komandan İlham Əliyev öz çıxışlarında revanşist qüvvələrə öz mövqeyini qəti şəkildə bildirib ki, bu gün Ermənistanda bəzi revanşist qüvvələr baş qaldıranda bilməlidirlər ki, onların başı lazım olarsa, istənilən zaman əziləcəkdir. Biz imkan verə bilmərik ki, erməni faşizmi yenə baş qaldırsın. Biz imkan verə bilmərik, Ermənistan yenə də öz ordusunu o vəziyyətə gətirib çatdırsın ki, bizə hansısa bir təhdid olsun. Biz əgər mümkün olan təhdidi təsbit etsək, dərhal onu məhv edəcəyik. Bunu hər kəs bilməlidir – həm Ermənistan, həm də onun havadarları. Çünki bu, milli müdafiədir, milli təhlükəsizlik məsələsidir. Bununla paralel olaraq, biz əməkdaşlığa da hazırıq – baxmayaraq ki, Ermənistan azərbaycanlılara qarşı dövlət səviyyəsində soyqırımı törətmişdir.

Əlbəttə, Azərbaycan tərəfi humanitar qaydada razı olduğu Laçın dəhlizi ilə bağlı məsələyə də uzun müddət birtərfli yanaşma sərgiləyə bilməz. Çünki bu iki dəhlizin işləməsi regionda kommunikasiyaların bərpasına xidmət edir. Bunun birini qapalı saxlamaq və prosesi uzatmaq mümkün deyil. Azərbaycan bununla bağlı özünün qəti mövqeyini ortaya qoyacaq. Bu gün Gorus–Qafan yolundakı Azərbaycanın tətbiq etdiyi inzibati tədbirlər bəlli proseslər üçün bir başlanğıc və mesaj olmalıdır.

Ümumiyyətlə, bu gün Azərbaycanın hərbi-iqtisadi qüdrəti, xüsusilə müharibənin nəticələrindən sonra daha da bəlli oldu. Bu onu göstərdi ki, Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra böyük inkişaf yolu keçmiş, öz qüdrətini hər il daha artırmışdır.

Artıq Azərbaycan əvvəlki Azərbaycan deyil. O zaman müstəqillik yolunda ilk addımlarını atan ölkəmiz Ermənistanın hərbi təcavüzü ilə üz-üzə qalmışdı. Keçmiş SSRİ rəhbərliyinin Ermənistana müxtəlif yollarla dəstəyi, onların separatçılıq-terror əməllərini görməzdən gəlmək ölkəmizi ciddi mənada çətin vəziyyətdə qoymuşdu. Bir tərəfdən də ölkəni bürüyən daxili çəkişmələr davam edirdi. Nəticədə qısa müddətdə Azərbaycan torpaqlarının 20 faizi Ermənistan tərəfindən işğal olundu, bir milyon vətəndaşımız öz doğma yurdyuvasından didərgin düşdü.

Yalnız ulu öndər Heydər Əliyevin 1993-cü ildə Azərbaycan rəhbərliyinə qayıdışı ilə bütün sahələrlə bərabər ordu quruculuğuna da xüsusi diqqət yetirildi, nizamlı ordu yaradıldı. Ordunun maddi-texniki bazası gücləndirildi, Azərbaycanın Silahlı Qüvvələri qısa müddətdə böyük inkişaf yolu keçdi.

Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev ulu öndər Heydər Əliyevin ordu quruculuğu sahəsində həyata keçirdiyi işləri uğurla davam etdirərək, yüksək döyüş ruhu ilə seçilən öz ərazi bütövlüyünü təmin etməyə qadir, ən müasir silahlarla təchiz olunmuş ordu yaratdı. Nəhayət, qısa vaxtda bu rəşadətli ordu 30 ilə yaxın müddətdə işğalda olan torpaqlarımızı düşməndən azad etdi.

Ötən müddətdə Azərbaycan xalqı qələbəyə inamını heç zaman itirmədi. Dövlətimizin başçısı illərdir ki, bütün çıxışlarında Azərbaycan xalqına inam aşılayırdı, torpaqların mütləq azad ediləcəyini qətiyyətlə bildirirdi. Bütün beynəlxalq tribunalardan Azərbyacanın haqq səsini ucaldırdı, ermənilərin apardığı bütün qara-piyar kampaniyasını puç edirdi. Bir sözlə, Prezident İlham Əliyev işğal altında olan torpaqlarımızı düşməndən azad edəcəyinə inanırdı. Dövlət başçımızın ötən sentyabrın 27-də keçirdiyi Təhlükəsizlik Şurasının iclasındakı çıxışı bu fikri bir daha təsdiqləyir: “Mən əminəm ki, bizim uğurlu əks-hücum əməliyyatımız işğala son qoyacaqdır. Ədalətsizliyə son qoyacaqdır. Otuz ilə yaxın davam edən işğala son qoyacaqdır. Çünki Azərbaycan xalqı öz torpağında yaşamaq istəyir. Azərbaycan vətəndaşı Vətən həsrəti ilə yaşayır. Ermənilər tərəfindən, Ermənistan rəhbərliyi tərəfindən öz dədə-baba torpaqlarından zorla didərgin salınmış insanlar öz doğma ocaqlarına qayıtmaq istəyirlər. Baxmayaraq ki, artıq onların ocaqları vəhşilər tərəfindən dağıdılıb. Baxın Ağdam şəhərinin qalıqlarına. Baxın Füzuli şəhərinin qalıqlarına. Baxın işğal edilmiş ərazilərdə bizim məscidlərimizin, qəbiristanlıqlarımızın dağılmış vəziyyətinə. Bütün bunları erməni cəlladları törədib və biz tam haqlıyıq. Bizim mübarizəmiz haqq mübarizəsidir və bu gün Azərbaycan vətəndaşları dövlətə tam dəstək göstərirlər, bu dəstəyi biz daim hiss edirik. Azərbaycan vətəndaşı Azərbaycan Ordusunun yanındadır. Otuz ilə yaxın öz doğma torpaqlarına qayıda bilməyən soydaşlarımıza da üz tutub deyirəm, biz əlimizdən gələni edəcəyik ki, sizi öz doğma torpaqlarınıza qaytaraq. Mən Ermənistana xəbərdarlıq etmişdim. Tovuz hadisələrindən sonra bir neçə dəfə xəbərdarlıq etmişdim ki, əgər onlar öz çirkin əməllərindən əl çəkməsələr peşman olacaqlar. Biz onlara 2016-cı ildə, 2018-ci ildə, bu ilin iyul ayında dərs verdik. Amma görünür ki, bu, onlar üçün dərs olmadı. Bu dəfə də dərs veririk və verəcəyik. Bu gün şanlı Azərbaycan Ordusu böyük uğurla əks-hücum əməliyyatı keçirir və bu əməliyyat davam edir.Onu da bildirməliyəm ki, bizim bütün hərbi hissələrimizdə, hərbi birləşmələrimizdə ruh yüksəkliyi var. Eyni zamanda, ordumuza könüllü yazılanların sayı on minlərlə insanı əhatə edir. Bu, xalqımızın öz dövlətinə sadiqliyini göstərir”.

Vətən müharibəsi başladıqdan cəmi bir neçə gün sonra Azərbaycan Ordusu önəmli yüksəklikləri işğaldan azad edərək, nəzarətə götürdü. Düşmənin xeyli sayda texnikasını və canlı qüvvəsini məhv etdi. Məhv edilən, sıradan çıxarılan hərbi texnikanın, silah-sursatın isə sayı-hesabı yox idi. Artıq Azərbaycan Ordusu dayanmaq fikrində deyildi, o, Qarabağı, işğal olunmuş torpaqlarımızı son qarışınacan azad etmək əzmində, qüdrətində və qərarında idi. Onu bu yoldan, haqq savaşından heç kim və heç nə dayandıra bilməz və bilməyəcəkdi.

Hazırda Azərbaycan öz tarixinin ən şanlı və şərəfli dövrlərindən birini yaşayır. Azərbaycan tarixdə heç zaman bu qədər güclü olmamışdır. Vətən müharibəsində qələbədə bir çox amillər, xüsusilə, Azərbaycan xalqının birlik və həmrəyliyi böyük rol oynadı. Düşmən üzərində qələbə Prezident – xalq – ordu birliyini bir daha nümayiş etdirdi.

Xalqımız tam əmin idi ki, dövlətimizin uğurlu siyasəti, Azərbaycan Ordusunun gücü, qüdrəti nəticəsində indi tarixə qovuşmuş Ermənistan – Azərbaycan, münaqişəsi öz ədalətli həllini tapacaq, soydaşlarımız doğma yurd-yuvalarına qayıdacaq, ölkəmizin həyatında, inkişaf tarixində yeni bir mühüm mərhələ başlanacaq.

Möhtərəm Prezidentimiz hər zaman çıxışlarında bildirir ki, o, öz xalqına arxalanır, xalqdan güc alır. Təbii ki, hər zaman xalqının yanında olan, onun daha yaxşı, təhlükəsiz şəraitdə yaşamasını istəyən, dövlətimizin ən yüksək zirvələri fəth etməsi üçün islahatlar həyata keçirən, ən əsası, Azərbaycanın sözünü imzası qədər dəyərli edən ölkə Prezidentinə milyonların sevgisi, dəstəyi şəksizdir. Xalq-iqtidar birliyi fonunda hər bir çətinlik dəf edilir, qarşıya qoyulan hədəflərə qısa vaxtda yüksək səviyyədə nail olunur. Daim inkişafın, tərəqqinin, özünə diqqət və qayğının şahidi olan xalqın dövlətinə, Prezidentinə inamı təbiidir. Xalqın öz rəhbərinə inamının böyük olduğu ölkədə dövlət başçısına milyonların sevgisi danılmazdır.

Heç şübhəsiz ki, xalq – iqtidar birliyi uzunmüddətli inkişaf strategiyasının müəyyənləşdirilməsinə geniş imkanlar açır. Dövlətimizin başçısı cənab İlham Əliyev daim çıxışlarında xalqa arxalandığını bəyan edərək, irəli sürülən təşəbbüslərin ölkə əhalisi tərəfindən dəstəklənməsinin davamlı uğurlara yol açdığını diqqətə çatdırır: “Mən həmişə Azərbaycan xalqının dəstəyini hiss etmişəm və hiss edirəm. Bu dəstək mənə güc verir. Mən bu dəstəyə arxalanıram və xalqı bir daha əmin etmək istəyirəm ki, bundan sonra da xalqa və Vətənə ləyaqətlə xidmət edəcəyəm”.

İndi istər region üçün, istərsə də ətraf ölkələr üçün strateji əhəmiyyət kəsb edən Zəngəzur dəhlizi məsələsi gündəmdədir. Biz bu mərhələni də uğurla keçəcəyik. Zəngəzur dəhlizinin istifadəyə verilməsi eyni zamanda Azərbaycanı regionun nəqliyyat qovşaqlarının mərkəzinə çevirəcək. Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin formalaşmasında yaxından iştirak edir, birbaşa həmin nəqliyyat dəhlizlərinin regional hissəsinin inkişafına, həm də maliyyə dəstəyi nümayiş etdirir. Bu, Naxçıvan Azərbaycanın əsas ərazisi vasitəsilə həmin nəqliyyat dəhlizlərinə çıxışın təmin edəcək. Xüsusən də Şərq-Qərb nəqliyyat dəhlizinə naxçıvanlı iş adamlarının çıxışının təmini baxımından əhəmiyyətli olacaq. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın İkinci Qarabağ müharibəsində əldə etdiyi şanlı qələbə geniş geosiyasi məkanda ciddi dəyişikliyə səbəb olmaqla, bu dəhlizin yaranmasını zərurətə çevirib. Böyük qələbənin fonunda Zəngəzurdan – tarixi Azərbaycan torpağından keçəcək və Azərbaycanın əsas ərazisini ölkənin ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası, eləcə də Türkiyə ilə birləşdirəcək yeni dəhlizin əhəmiyyəti aydın nəzərə çarpır. O cümlədən, müxtəlif dövlətlərin bu məsələyə münasibəti, regional və qlobal əməkdaşlıq kontekstində dəhlizin meydana gətirə biləcəyi yeni məqamlar, Azərbaycanın müstəqil dövlət kimi fəaliyyətinin məzmununa uyğun olaraq məsələlərin aktuallaşdığı şübhəsizdir. Həmin bucaq altında Zəngəzur dəhlizinin reallaşmasının geosiyasi analizi də çox aktualdır. Ekspertlər bu məsələ ilə bağlı öz fikirlərini ifadə edir, müəyyən proqnozlar verirlər.

Maraqlıdır ki, proqnozların mütləq çoxluğu Zəngəzur dəhlizinin regional əməkdaşlıqda müstəsna rol oynayacağına olan inamla bağlıdır. Bütün bunların fonunda Zəngəzur dəhlizinin geosiyasi, geoiqtisadi, nəqliyyat-logistika və coğrafi aspektlərdə təhlilinin zəruriliyi daha aydın görünür. Şübhəsiz ki, dəhlizin əhəmiyyətliliyini Ermənistan da yaxşı dərk etməlidir. Çünki bu dəhlizin Ermənistan iqtisadiyyatının inkişafına kömək edəcək, həmin ölkənin böyük layihələrə reinteqrasiyasını stimullaşdıracaq. Ənənəvi revanşist siyasətə mübtəla olmadansa, dünyaya açıq nəzərlərlə baxmaq onlar üçün daha faydalı olardı. Erməni cəmiyyətinin çox az sayda olan açıq gözlü ekspertləri artıq bu dəhlizin əhəmiyyətini anlamağa başlayıblar və aqressiv ritorikadan əl çəkməyi tövsiyə edirlər. Erməni ziyalıları, Ermənistan dövlətinin başında duranlar yaxşı anlamalıdırlar ki, Azərbaycanla güc dilində davranış sərgiləməyin heç bir perspektivi yoxdur. Bu tərzin potensialı uzaq başı 44 günlük Vətən müharibəsində alınan sarsıdıcı zərbəyə oxşar başqa bir fiaskodur. Bu isə heç bir ağlı başında olan cəmiyyətə sərf etməz.

Vətən müharibəsindəki qələbədən sonra dünyada həm də Azərbaycana olan diqqət və maraq artıb. Bu gün Azərbaycan 44 günlük müharibədə əldə etdiyi qələbənin daha da möhkəmləndirilməsi istiqamətində səylə çalışır. Ötən müddətdə Şuşa Bəyannaməsi, Bakı Bəyannaməsi kimi mühüm sənədlər imzalanmışdır. Bu sənədlər Azərbaycanın Türkiyə və Pakistan ilə strateji müttəfiqliyini daha da möhkəmləndirəcək. Bu, həm də müsəlman ölkələri arasında birlik və həmrəyliyin güclənməsinə ciddi töhfə verəcək, yeni əməkdaşlıq imkanları yaradacaq. Bu isə bir daha onu sübut edir ki, Ermənistanın hərbi cəhətdən güclənmək istəyinin arxasında dayanan məkrli niyyətlərin axırı fiaskodur. Çünki Ermənistan arxalanmaq istədiyi qüvvələr belə Azərbaycan, Türkiyə və Pakistan üçlüyü ilə münasibətləri korlamaq istəməyəcək.

Biz həm də torpaqların əzəli və əbədi sahibi olduğumuzu hər gün siyasətimizlə, atdığımız məqsədyönlü addımlarla sübut edirik. Ərazilərimiz işğaldan azad olunduqdan sonra qısa müddətdə Qarabağda çox böyük quruculuq və bərpa işlərinə başlanılıb. 9 ayda bölgədə xeyli iş görülüb. İnanırıq ki, Azərbaycan qısa müddətdə bu əraziləri dünyanın ən abad və gözəl bölgələrindən birinə çevirəcək. Bu həm də Azərbaycanın gücünün və qüdrətinin göstəricisidir.

Prezident İlham Əliyevin davamlı olaraq işğaldan azad olunmuş ərazilərə səfər etməsi, yeni infrastruktur layihələrinin təməlini qoyması, bu günədək görülən işlərlə tanış olması onun bütün prosesi birbaşa nəzarətdə saxladığını göstərir.

Heç şübhəsiz ki, bütün bu layihələr tez bir zamanda uğurla icra olunacaq, bölgə insanları tezliklə öz dədə-baba yurdlarına dönəcəklər. Artıq Zəngilan rayonunda “ağıllı kənd” layihəsi uğurla icra olunur. Yaxın vaxtlarda zəngilanlılar öz doğma dədə-baba yurdlarına köçəcəklər, həyat öz təbii axarına qayıdacaq.

Onu da qeyd edək ki, hazırda işğaldan azad olunmuş bir sıra ərazilərimizdə hava limanları inşa olunur. Bu hava limanları Azərbaycanın təhlükəsizliyi baxımından da xüsusi əhəmiyyət daşıyır. Artıq Füzuli Hava Limanında işlər yekunlaşmışdır. Artıq Fizuli Hava Limanın ilk təyyarəmiz eniş də etmişdir. Hazırda, həmçinin Horadiz–Ağbənd dəmir yolunun, Horadiz–Zəngilan, Cəbrayıl–Hadrut yolunun çəkilməsi sürətlə davam etdirilir.

Beləliklə, müstəqil Azərbaycan bir daha heç vaxt ərazi bütövlüyünü itirməyəcək, əzəli torpaqlarından vaz keçməyəcək, qədim yurd yerlərində ikinci erməni dövlətinin yaranmasına imkan verməyəcək. Xalqımıza, mədəniyyətimizə qarşı soyqırımı törədən, məscidlərimizi, məzarlığı dağıdan, mədəni irsimizi öz adlarına çıxarmağa çalışan işğalçı Ermənistan hakimiyyətinin heç bir avantürist, məkrli planı baş tutmayacaq. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu hər zaman Vətənin keşiyində mətinliklə dayanacaq.

***Ceyhun MƏMMƏDOV,***
***Milli Məclisin deputatı***